# ULU DAĞIN ZİRVƏSİNDƏN BAXANDA...

(əvvəli ötən sayımızda)

**Torpaqların su təminatının yaxşılaşdırılması məqsədi ilə cari ilin altı ayı ərzində 233.7 min $m^3$ həcmdə lildən təmizləmə işləri, 22 ədəd hidropost və 22 ədəd hidroqurğuda təmir işləri aparılmışdır.**

Sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi məqsədi ilə rayon ərazisində daşqın və selə qarşı 505.8 min $m^3$ məcratəmizləmə işləri aparılmış, 903 $m^3$ qabion və 2311 $m^3$ daş-beton bəndlərdə sahilbərkitmə işləri aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2019-cu il tarixli Sərəncamına uyğun olaraq cari ildə rayonun 14 yaşayış məntəqəsində - Qazmalar, Almalı, Tanqıt, Qaysarlı, Qorağan, Şotavar, Ləlöli, Tasmalı, Ləkit, Qum, Qaratala, Qaradolaq, Böyük Alatəmir və Qaşqaçay kəndlərində artezian quyuları qazılmışdır. Həmçinin hesabat dövründə Yaponiya səfirliyinin maliyyə dəstəyi



ilə əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə rayonun Güllük və Baydarlı kəndlərində hər birində 1 ədəd artezian quyusu qazılmışdır. Daha sonra yığıncaqda deyildiyi kimi ötən altı ay ərzində rayonun ərazisində ekoloji durumun yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi və yaşıllıqların artırılması məqsədilə Şəki Regional Meşə Mərkəzinin Qax Meşəbəyliyi tərəfindən 5 hektar sahədə yeni fındıq bağı salınmışdır.

İlisu Dövlət Təbiət Qoruğu tərəfindən qoruq və yasaqlıq ərazilərində həmçinin xüsusi mühafizə olunan təbiət əraziləri ilə həmsərhəd ərazilərdə fauna elementlərinin qorunması, mühafizə rejiminə əməl olunması ilə bağlı tədbirlər davam etdirilmişdir. Ötən dövr ərzində qanunsuz otarma və qırıntı, qoruq rejiminə əməl olunmaması ilə bağlı 15 fakt aşkar edilərək 4590 manat məbləğində inzibati cərimə tətbiq edilmiş, cərimənin 4045 manatının Qoruğun xüsusi fonduna köçürülməsi təmin olunmuşdur.

Rayonda heyvandarlıq məhsulları istehsalının intensiv inkişaf etdirilməsinə zəmin yaradan cins maldarlığın inkişafı və süni mayalandırmanın tətbiqinin daha da genişləndirilməsi istiqamətində aparılan tədbirlər davam etdirilərək cari ilin 6 ayı ərzində 2295 baş inək-düyə yüksək məhsuldar törədici toxumlarla süni yolla mayalandırılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 171 baş çox olmuşdur.

Hesabat dövründə yolların əsaslı təmiri və abadlıq işlərinin görülməsi ilə bağlı büdcədə nəzərdə tutulmuş vəsait hesabına şəhərin M.Müşfiq küçəsi döngə-1, Babək, Şirvani, M.Hüseynzadə, H.Cavid, Bakıxanov, H.Tağıyeva, M.Əmirov və H.Aslanov küçələrində yol və səkilərin təmiri, Cəlayir kəndinin giriş yolunun əsaslı təmiri, H.Tağıyeva, M.Əmirov və H.Aslanov küçələrində isə abadlıq işlərinin aparılması nəzərdə tutulmuşdur. Ötən dövr ərzində Müşfiq küçəsi döngə-1, Babək, Şirvani və H.Aslanov küçələrində işlər başa çatmış, digər küçələrdə isə işlər hazırda davam etdirilir.

Hesabat dövründə Yevlax-Zaqatala-Gürcüstan Respublikası ilə dövlət sərhədi (96 km) - Qax-İlisu avtomobil yolunun yenidən qurulması və Qax şəhərində 48 mənzilli yaşayış binasının tikintisi işlərinə başlanılmış, işlər hazırda davam etdirilir.

Həmçinin hesabat dövründə Tasmalı və Əlibəyli kəndlərində tam orta məktəblərinin tikintisi, Qaxingiloy kənd 19 saylı və Qum kənd 16 saylı körpələr evi-uşaq bağçalarının əsaslı təmiri işləri davam etdirilmişdir. Qaradolaq, Qarabaldır, Əmircan, Qapıçay, Çinarlı, Fıstıqlı və Aşağı-Malax kəndlərində modul tipli məktəblərin tikintisində isə son tamamlama işləri aparılmışdır. Qax şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qax rayon şöbəsinin inzibati binasının tikintisi işləri davam etdirilmişdir.



Cari ilin 6 ayı ərzində rayon İcra Hakimiyyəti tərəfindən 40 fərdi yaşayış evinin tikintisinə, 23 fərdi yaşayış evinin istismarına, eyni zamanda 5 sahibkarlıq obyektinin tikintisinə və 8 sahibkarlıq obyektinin istismarına icazə verilmişdir.

Cari ilin 6 ayı ərzində rayon Mərkəzi Xəstəxanasının 109 nəfər həkimi və 398 nəfər orta tibb işçisi əhaliyə xidmət göstərmişdir.

Hər il olduğu kimi bu il də 12 fevral tarixdən may ayının 1-dək rayonda əhalinin tibbi müayinədən keçirilməsi həyata keçirilmişdir. Əhalinin 20983 nəfəri tibbi müayinədən keçmiş, onlardan 1916 nəfəri ambulator, 18 nəfəri stasionar müalicəyə cəlb olunmuş, 10 nəfəri Bakı şəhərinə müalicəyə göndərilmiş, 1 nəfəri isə əməliyyat olunmuşdur.

Hesabat dövründə Dövlət Sosial Müdafiə Fondu Qax rayon şöbəsində "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yaşa görə 146 nəfərə, əlilliyə görə 14 nəfərə və ailə başçısını itirməyinə görə 11 nəfərə əmək pensiyası təyin olunmaqla ümumilikdə 171 nəfərə əmək pensiyası təyin olunmuşdur. 01 iyul 2019-cu il tarixə şöbə üzrə uçotda olan pensiyaçıların sayı 8335 nəfər olmuşdur ki, bunlardan 5486 nəfəri yaşa görə, 2183 nəfəri əlilliyə görə və 666 nəfəri ailə başçısını itirməyinə görə əmək pensiyası alan şəxs olmuşdur.

Cari ilin birinci yarısında Qax Rayon Məşğulluq Mərkəzində 772 nəfər işaxtaran kimi qeydiyyata alınmışdır. Qeydiyyata alınanların 19 nəfəri struktur dəyişiklikləri ilə əlaqədar işdən azad olunan, 49 nəfəri kadr axıcılığı nəticəsində işdən azad olunan, 3 nəfəri hərbi xidmətdən tərxis olunan, 8 nəfəri cəzaçəkmə yerlərindən azad olunan, 511 nəfəri digər səbəblərdən işdən azad olunan, 182 nəfəri isə əmək fəaliyyəti ilə məşğul olmayan şəxslər olmuşdur. Qeydiyyata götürülənlərin 67 nəfəri ali, 76 nəfəri orta-ixtisas, 81 nəfəri ilk peşə-ixtisas, 1 nəfəri ibtidai, 17 nəfəri ümumi orta və 530 nəfəri isə orta təhsili şəxs olmuşdur. Hesabat dövründə Məşğulluq Mərkəzində 5 nəfərə işsizlikdən sığorta haqqı hesablanmış və ödənişi təmin olunmuşdur.

Qax Kommunal Müəssisələri Kombinatı tərəfindən cari ilin 6 ayı ərzində məişət tullantılarının daşınmasına dair bağlanmış müqavilələr əsasında 1829 təsərrüfat subyektinə, kommunal evlərdə yaşayan 682 abonentə, 315 sahibkara, 30 idarə, müəssisə və təşkilata müvafiq xidmətlərin göstərilməsi təmin edilmişdir. Şəhər ərazisində abonentlərə xidmət üçün 2 qutu, 15 xüsusi yer və 154 konteyner ayrılmışdır. Hesabat dövründə Kombinat tərəfindən 9.5 min $m^3$ həcmində bərk məişət tullantılarının poliqonda zərərsizləşdirilməsi, eləcə də şəhərin 70 küçə və prospektini, eləcə də 9 park və bağını əhatə edən 2257 ədəd nöqtənin işıqlandırılması təmin olunmuşdur.

Kombinat tərəfindən şəhərin şəhərin küçə və parklarında 1364 ədəd müxtəlif növ ağac, 600 ədəd gül kolu, 19600 ədəd qızılgül, çiçək və gül əkilmiş, 1250 $m^2$ sahəyə çəmən, 300 $m^2$ sahəyə isə gül toxumu səpilmişdir.

Zaqatala Regional Qaz İstismarı İdarəsinin Qax sahəsi tərəfindən hesabat dövründə qaz sayğaclarının əvəzlənməsi, küçə xətlərinə çıxarılması işi davam etdirilərək 131 sayğac küçə xəttinə çıxarılmış, 98 ədəd qaz sayğacı yenisi ilə əvəzlənmiş, 57 ədəd smartkart tipli sayğac quraşdırılmışdır. Şəhər ərazisində 248.5 pm uzunluğunda yeni qaz xətləri çəkilmiş, 11 ədəd qaz tənzimləyicisi quraşdırılmış və 68 mənzilə qaz çəkilişi aparılmışdır.

Elektrik Şəbəkəsi tərəfindən cari ilin altı ayı ərzində 39 ədəd transformator yarımstansiyası cari təmir olunmuş, 3 ədəd yeni ayrıcı quraşdırılmış, 53 ədəd 10 kV-luq, 70 ədəd 0.4 kV-luq dayaq dəyişdirilmişdir. Elektrik xətlərinin mühafizə zonasının 44.9 km hissəsi təmizlənmiş, 123 ədəd yeni sayğac quraşdırılmış, 1866 ədəd sayğac isə yenisi ilə əvəz olunmuşdur. Əlibəyli kəndində 0.4 kV-luq şəbəkənin yenidənqurulması işləri çərçivəsində 41 ədəd yeni 0.4 kV-luq metal boru dayaq basdırılmış, 111 ədəd sayğac dəyişdirilmiş, 5686 metr uzunluğunda yeni SİP kabel xətti və 1100 metr uzunluğunda A-35 markalı yeni naqil çəkilmişdir.

**Qax Sukanal İdarəsi tərəfindən hesabat dövründə 5775 abonent olmaqla 13935 nəfər içməli su ilə təmin olunmuşdur. İdarə tərəfindən cari ilin 6 ayı ərzində xidmət göstərilməsi məqsədilə 13 büdcə, 22 respublika, 168 kommersiya və 37 sənaye təşkilatı ilə müqavilə bağlanılmışdır. Hesabat dövründə istehlak olunmuş içməli suya görə yığım faizi ümumilikdə 105.3 faiz təşkil etmişdir. Cari ildə idarə tərəfindən 197 ədəd su sayğacı quraşdırılmaqla rayon üzrə quraşdırılmış su sayğaclarının ümumi sayı 5388-ə çatdırılmışdır.**



**Məzahir ƏHMƏDZADƏ**

Ədalət 2019.- 29 avqust.- S.3.